3 (999)
evral
3-cü il

# Mədəniyyət

www.medeniyyet.az

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

Qiyməti 40 qəpik




**Prezident İlham Əliyev Musa Mirzəyevin "Şərəf" ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb**

səh. 2

# urizm və idman bir arada

**drid sərgisində ilk dəfə olaraq Azərbaycan turizmi ilə yanaşı, ölkəmizin idmanı da təmsil olunur**



## Gənclər Günü mədəniyyət tədbirləri ilə qeyd ediləcək

Mədəniyyət və Turizm Nazirliyi tərəfindən Gənclər Günü ilə bağlı müxtəlif tədbirlər keçiriləcək. Fevralın 1-də nazirliyin və Heydər Əliyev Sarayının birgə təşkilatçılığı ilə "Gəncləşən muğam-4" adlı konsert təqdim olunacaq.

2

## Kitablarımız Minsk beynəlxalq sərgisində

Bir çox ölkələrin qatıldığı Minsk sərgisinin 20 illiyi qeyd olunur. Builki sərgidə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən ölkəmizin, həmişə olduğu kimi, yüksək səviyyədə iştirakı nəzərdə tutulmuşdur.

3

da danışıblar.

ATİ-nin nümayəndə heyətinin tərkibində Tədqiqat və inkişaf şöbəsinin layihələr üzrə böyük mütəxəssisi Kazım Quliyev və metodisti Yulius Arneqqer də olub. Cənubi Qafqaz dövlətlərinin hər birindən iki nəfərdən ibarət rəhbər komitə təşkil edilib. Azərbaycan üzrə rəhbər komitəyə Kazım Quliyev və «Ekosfera» Sosial-Ekoloji Mərkəzin direktoru Firuzə Sultanzadə seçilib.

Qeyd edək ki, tədbirlərdə ölkəmizdə Azərbaycan Turizm İnstitutu, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Dövlət Kənd Təsərrüfatı Universiteti, Mingəçevir Turizm Kolleci, Azərbaycan Turizm Assosiasiyası, Bakı Turizm İnformasiya Mərkəzi, «Ekosfera» Sosial-Ekoloji Mərkəz, «Millennium Turizm Konqress» DMC və «Təbiət dostları» qeyri-hökumət gənclər təşkilatının nümayəndələri iştirak edib. Görüşlərdə layihənin mərhələləri, iş bölgüsü aparılıb, işçi qrupların gələcək fəaliyyət istiqamətləri müəyyən edilib.

Yanvarın 28-29-da isə TEMPUS proqramı çərçivəsində növbəti müzakirələr Azərbaycanda fəaliyyət göstərən Qafqaz Universitetində keçirilib. Burada proqram çərçivəsində «Kompyuter bilikləri sahəsində milli test mərkəzlərinin yaradılması» layihəsinin açılış mərasimi olub. 5 Avropa və 11 yerli universitetin nümayəndəsinin iştirak etdiyi layihənin əsas məqsədi İKT sahəsində biliklərin artırılması və onların ölçülməsidir. Layihə 2015-ci ilin oktyabrında başa çatacaq. Layihənin sonunda Azərbaycanın müxtəlif universitetlərində sertifikatlaşdırılmış test mərkəzləri fəaliyyətə başlayacaq. Latviya, Litva, İspaniya, İsveç və Polşa universitetlərinin nümayəndələrinin də iştirak etdiyi tədbirdə Azərbaycan Turizm İnstitutunun Xarici əlaqələr və layihələr şöbəsinin müdiri Şəhla Əhmədova və İnformasiya texnologiyaları kafedrasının müdir müavini Flora Ələsgərova təmsil edib.

**Fəxriyyə**

**Azərbaycan Turizm İnstitutunun nümayəndə heyəti yanvarın 21-dən 25-dək Avropa İttifaqının TEMPUS proqramı çərçivəsində Almaniyada səfərdə olub. ATİ «Davamlı turizmin idarə olunması sahəsində beynəlxalq bakalavr və magistr proqramları üçün yeni modulların hazırlanması» layihəsində tərəfdaş ali təhsil müəssisələrindən biridir. Almaniya, İrlandiya, Latviya, həmçinin Cənubi Qafqaz dövlətlərinin tərəfdaş olduğu və 3 il müddətində nəzərdə tutulan layihə regionda turizm sahəsində təhsilin keyfiyyətinin artırılmasına istiqamətlənib.**

# Turizm İnstitutu TEMPUS proqramı çərçivəsində müzakirələrdə iştirak edib



Almaniyanın Vilhelmshaven şəhərində layihənin ilkin görüşü keçirilib. Görüşü Almaniyanın Jade Tətbiqi Elmlər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, layihə koordinatoru Uve Vaythoner açıb. Vilhelmshaven şəhərinin meri Holger Barkovski, Azərbaycan Turizm İnstitutunun Xarici əlaqələr və layihələr şöbəsinin müdiri Şəhla Əhmədova çıxış edərək layihənin əhəmiyyəti haqqın-